# Tədris mərkəzində valideynlərlə görüş

***Ölkə Prezidenti cənab İlham Əliyevin böyük diqqət və qayğısı sayəsində peşə təhsili respublikamızda prioritet sahələrdən biri kimi müəyyən olunur.***

***Bu gün peşə təhsilinin inkişafı gənc nəslə daha uğurlu gələcək qurmağa təminat verir.***

***Şagirdlərin bir şəxsiyyət kimi formalaşmasında seçdiyi peşənin incəliklərini bilmək, hərtərəfli biliyə malik olmaq üçün yorulmadan çalışmaq qarşıya qoyulan əsas vəzifələrdən biridir.***

Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzi qabaqcıl tədris müəssisəsi kimi şagirdlərin mənəvi, əxlaqi, fiziki, estetik tərbiyəsini əsas tutaraq, yeni gənc nəslin yetişdirilməsi üçün məktəb-valideyn birliyinin qurulmasını vacib amil hesab edir.

Bu məqsədlə tədris mərkəzində noyabrın 18-də ənənəvi valideynlər iclası keçirilmişdir.

Tədbiri giriş sözü ilə tədris mərkəzinin direktoru Eyvaz Kazımov açmışdır. O çıxışında bildirmişdir ki, tədris mərkəzində təhsil alan şagirdlərin davranışı, təlim-tərbiyəsi, məktəbə, təhsilə münasibəti haqqında fikirləri valideynlərlə bölüşmək, müzakirə etmək, qarşıya çıxan çətinlikləri onların nəzərinə çatdırmaq məktəb rəhbərliyinin və müəllimlərin borcudur.

Tədris mərkəzində şagirdlər əsasən aşpaz, qənnadçı-şirniyyatçı, ofisiant, barmen, bufetçi, mehmanxana inzibatçısı, turizm agenti, kompüter operatoru, əməliyyatçı mühasib ixtisasları üzrə təhsil alırlar. Hər bir ixtisasa müvafiq olaraq şagirdlərin seçdiyi peşəyə uyğun bilik və bacarıqlar əldə etməsi üçün mərkəzin hərtərəfli təcrübəyə malik mühəndis-pedaqoji heyəti səylə çalışır.

Gənclərin çağırışaqədərki hazırlıq rəhbəri İlham Əfəndiyev öz çıxışında yeniyetmə və gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsinin, yeniyetmələr arasında milli-mənəvi dəyərlərimizin aşılanmasının, onlara zəngin və qədim tariximizin öyrədilməsinin vacib olduğunu qeyd etdi. İlham Əfəndiyev qeyd etdi ki, son dövrlərdə cəbhə xəttində yaranmış gərginliklə bağlı olaraq tez-tez bu barədə şagirdlərlə söhbət aparmaq, Vətənin müdafiəsində canlarından keçmiş milli qəhrəmanlarımızın keçdiyi döyüş yolunu öyrənməyin özü gənc nəslin həyatda düzgün mövqe tutmasına, əsl vətənpərvər kimi yetişməsinə stimul verir.

Tədbirdə aşpaz qrupunun istehsalat təlimi ustası Azər Abdulxalıqov, tədris ilini yeni qrupla başlayan Mehman Abdullayev, turizm agenti peşəsi üzrə istehsalat təlimi ustası Səbinə Cahangirli çıxış edərək öz qrupları ilə bağlı məlumat verdilər. Şagirglərdən Pünhan Baxışlı, Elmar Əlisoltanov, Məhəmməd Həşimli, Cəlil Xəlilov, Vüsal Qəribov, Munis Cəlilov və başqaları öz davranışları ilə digər şagirdlərə nümunə göstərirlər.

Görüş diskusiya şəklində davam etmişdir. Görüşlə bağlı valideynlərin fikirləri dinlənildi və onlar belə tədbirlərin vaxtaşırı keçirilməsinin məqsədəmüvafiq olduğunu qeyd etdilər.

✍ **Vüsalə QƏRİBOVA,**
**mərkəzin psixoloqu.**

### *Həkim məsləhəti*

# Özünüzü qripdən qoruyun

Qrip geniş yayılmış kəskin virus mənşəli yoluxucu xəstəliklərdəndir. Bu xəstəlik adətən payız-qış mövsümündə aktivləşir və epidemiya şəklində yayılır. Xəstəliyi adi mikroskopla görünə bilməyən, süzülən viruslar törədir. Lakin onun bir çox simptomları məlumdur. Ən çox aktiv olan və daha çox rast gəlinən A, B, S, D, A2 kimi simptomlardır.

Qrip törədiciləri ilk dəfə 1933-cü ildə araşdırılıb. Bu viruslar soyuq hava şəraitində öz aktivliyini bir neçə ay saxlamaq qabiliyyətinə malikdir.

Xəstəliyin əhali arasında yayılmasına səbəb qrip viruslarını orqanizmdə gəzdirən xəstə şəxslərdir. Qripli xəstə öskürdükdə, asqırdıqda virusları damcı vasitəsilə ətrafa ötürür, sağlam şəxslər üçün təhlükə yaradır. Viruslarla çirklənmiş hava şəraitində nəfəs alan şəxslər tənəffüs yolu vasitəsilə qrip xəstəliyinə yoluxurlar. Xəstə şəxslərin istifadə etdikləri qab-qacaq və əşyalar da yoluxma vasitəsi ola bilər. Əhalinin sıx olduğu şəraitdə xəstəlik daha çox yayılır. Qış fəslində və yazın ilk aylarında xəstəlik daha geniş müşahidə edilir.

Qripə yoluxmada yaş xüsusiyyətlərinin əhəmiyyəti də böyükdür. 6 aylığa qədər körpələr qripə təsadüfi halda tutulurlar. 1,5—3 yaş arasında uşaqlar qripə həssas olurlar. Məktəblilər və kollektiv şəraitdə çalışan insanlarda da xəstəliyə həssaslıq böyükdür. Xəstəliyin gizli dövrü 12—48 saatlıqdır. İlkin əlamətləri bədəndə əzginlik, baş ağrısı, bütün oynaqlarda narahatlıqdır. Xəstənin hərarəti 3—4 gün, bəzən həftədən artıq davam edə bilər. Bu müddətin uzanması xəstəliyin ağırlaşmasının əlamətidir.

Xəstəliyin bronxit, pnevmaniya, meningit, meningoensefalit kimi ağırlaşmaları müşahidə oluna bilər. Belə ağırlaşmalar adətən pis qidalanan və immun sistemi zəif olan adamlarda rast gəlinir. Qrip yaşlı adamlarda ağır fəsadlar verir, digər təhlükəli vəziyyət isə körpələrdə yarana bilər.

Xəstələrin ilk növbədə həkimə müraciət etməsi zəruridir. Yoluxma vaxtı çox maye qəbul olunmalıdır. Zoğal və ya moruq mürəbbəsi ilə çay içmək, limon, bal, isti süddən istifadə etmək faydalıdır. Hərarətin 38—38,5-dən aşağı olan hallarında onu salmağa çalışmaq lazım deyil. Çünki bu hərarətdə orqanizmdə interfegeqon hasil olmağa başlayır və viruslara qarşı orqanizmin müdafiə faktorları güclənir, virusların artımının qarşısı alınır. Xəstələrin aktivliyinin azalması da orqanizmin enerjisinə qənaətetmə faktorlarına aiddir. Xəstələrin yüksək hərarəti olan vaxtlarında yataq rejimində olmaları məsləhətdir. Dərman müalicəsi isə ancaq həkimin təyinatı ilə və ağırlaşma vaxtı qəbul olunmalıdır. Yüngül və orta ağır xəstələrə dərman müalicəsi aparılmamalıdır.

Hər kəsə tövsiyə edirik ki, sağlam həyat tərzi keçirsinlər: idmanla məşğul olsunlar, alkoqollu içkilərdən və siqaretdən uzaq olsunlar, bol meyvə-tərəvəz məhsullarından istifadə etsinlər, təmiz havada gəzintidən faydalansınlar. Belə olan halda payız-qış mövsümünü sağlıqla yaşaya bilərik.

Sağlamlığımız öz əlimizdədir!

✍ **Saleh ASLANOV,**
**rayonun baş pediatrı.**

### *Bilirsinizmi?*

## Edvard Lidskalnin daş qayaların yerini dəyişdirməsi

ABŞ-a köçmüş latviyalı emiqrant Edvard Lidskalnin Floridada "Mərcan qalası" inşa etmişdi. İxtiracının boyu 1,6 metr, çəkisi 50 kiloqram idi. Lakin təkbaşına 30 tonluq qaya daşlarını daşıya bilirdi. Tikintidə təkbaşına işləyən ixtiraçı bundan ötrü özünün "sabitləşdirici əbədi mühərrik" adlandırdığı yeşikdən istifadə edirdi. 1951-ci ildə ölümündən sonra onun "Mərcan qalası" görməli yerlərdən birinə çevrildi. Bir çox turist indiyə qədər ona baxmağa gəlir. Maraqlı məqam bundan ibarətdir ki, 1986-cı ildə sıradan çıxmış "karusel qapı"nı indiyə kimi heç bir alim bərpa edə bilməyib.

Lidskalnin özü isə bunun sirrini insanlara açıqlamaq istəmədi və özü ilə məzara apardı.

## 300 ədəd tut tingi əkilib

Baramaçılığın inkişaf etdirilməsi məqsədilə rayonumuzun kümçüləri tut (çəkil) tinglərinin əkininə başlamışlar. Bu təşəbbüsə qoşulanlardan biri də Yenikənd kənd tam orta məktəbinin kollektividir. Redaksiyaya daxil olan məlumata görə təhsil müəssisəsinin kollektivi məktəbin həyətyanı sahəsində 300 ədəd tut tingi əkmişdir. Kollektiv bununla kifayətlənmir və məktəbin həyətində boş qalmış sahədə xeyli sayda tut tingi əkməyi nəzərdə tutub.

***«Qəbələ».***


# Oxucuların nəzərinə!

*Əl işdən soyumaz, ürək arzudan...*

QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti — 1933-cü ildən nəşr olunur

# qəzetinə

## 2017-ci il üçün abunə yazılışı davam edir.

## İllik abunə qiyməti 30 manat, yarımillik 15 manatdır.

***Abunə qəzetin «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və ya redaksiyanın özündə nəqd ödəmə yolu ilə aparılır.***

***Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.***

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.


## ELANLAR

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 9 saylı Ərazi İdarəsi tərəfindən Qəbələ rayonunun Məmmədağalı kənd sakini Mütdəhirov Əziz Səfər oğluna 18 iyun 2016-cı il tarixdə tərtib olunaraq verilmiş 406013062571 reyestr nömrəli (nömrəsi 061244) Torpaq sahəsinin planı və ölçüsünə dair sənəd itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

Qəbələ Rayon İcra Hakimiyyətinin rəhbərliyi, aparatın kollektivi Azərbaycan Respublikası Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı **Fəttah Heydərova** əzizi

**NURƏDDİN ƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

«Qəbələ» qəzeti redaksiyasının kollektivi Azərbaycan Respublikası Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı **Fəttah Heydərova** əzizi

**NURƏDDİN ƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Fövqəladə Hallar Nazirliyinin Şimal-qərb Regional Mərkəzinin kollektivi iş yoldaşları **Aqşin İbrahimliyə** atası

**ŞAHİN İBRAHİMLİNİN**

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzinin kollektivi iş yoldaşları **Gülay Qarayevaya** atası

**ABDULƏZİZ QARAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


*Redaktor Varis Yaqubov*

*TƏSİSÇİLƏR:* Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

*Növbətçi redaktor Aslan Cəlilov.*

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

*Dizayner Rais Rəşidov*

Tiraj 1800.

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.